# YADDAN ÇIXMAYAN HAMBAL

## yaxud Əhməd Rumlu möcüzəsi və "Qəzəllər" kitabı üzərində düşüncələr



**Şəddat CƏFƏROV**

*"Bakı mətbəəsi"nin direktoru, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, yazıçı, jurnalist*

Mənim bütün həyatım nəşriyyat işi ilə bağlı olduğundan ən müxtəlif məzmunlu kitablarla tanış olmaq, müəlliflər haqqında məlumatlanmaq imkanım olub. İstər müasir ədəbiyyatımızın görkəmli simaları ilə aramda yaranan ünsiyyət, istərsə də, klassiklərin əsərlərini nəşr etmək məni ədəbiyyata, söz sənətinə bağlayıb.

Son vaxtlar nəşr etdiyimiz kitablar arasında biri xüsusilə diqqətimi çəkdi; "Əhməd Rumlu- Qəzəllər". Bəli, indi yeni nəsilə o qədər də tanış olmayan Əhməd Rumlunun kimliyi, onun yaradıcılıq yolu haqqında qısa da olsa məlumat verməyi özümə borc bildim.

Bəs Əhməd Rumlu həqiqətdə kimdir? Onun ədəbiyyatımızın, incəsənətimizin tarixində hansı xidmətləri olub?

Bəri başdan deyim ki, məşhur "O olmasın, bu olsun" filminin ən unudulmayan və ən məşhur personajlarından biri - hambalı milyonlarla insanlar yaddaşlarına yazıb. Sadəcə sıradan bir obraz kimi yox, həm də sevimli bir obraz kimi dil əzbərinə çeviriblər.

Əhməd Rumlu həm də çox istedadlı şair-dramaturq idi. 1902-ci ilin avqustunda Bakıda doğulub. Onun haqqında ensiklopedik məlumatlarda belə bir mətn yer alır: "Həmşəri palanı deyilən məhəllədə tacir ailəsində dünyaya gəlib". Onu da qeyd etmək yerinə düşər ki, bu ailə əslən cənubi Azərbaycandandır. Hələ Əhməd doğulmamışdan əvvəl onun mənsub olduğu ailə dolanışıq, rahat güzəran arxasınca Azərbaycana - Bakıya gəlmişdi. Doğrudur, bu ailənin mühacirət etdiyini də qeyd edirlər. Ola bilsin ki, ailənin mühacirət etməsində başqa səbələr də olub.

Əhmədin atası ticarətlə məşğul olsa da, şərq mənəvi mühitini yaxşı bilirdi. Ərəb və fars dillərini də mənimsəmişdi. Ona görə də Əhmədi ruhani kimi görmək istəyirdi. Oğlu da elə mollaxanada ilk təhsilini almışdı.

Sonralar Əhmədin şərqə səfər edib ilahiyyat təhsili alması mümkün olmamış (əslində atası buna razılıq verməmişdi) və beləliklə o, sevdiyi teatr səhəsinə meyillənmişdir. 18 yaşı olanda tənqid-təbliğ teatrının səhnəsinə çıxır və tezliklə Gənc Tamaşaçılar Teatrının istedadlı aktyorlarından birinə çevrilir.

Məlumatlarda o da qeyd olunur ki, Əhməd Əhmədov (Rumlu) poeziya ilə ədəbiyyata gəlir. Onun "Humay" poeması diqqəti cəlb edir. Sovet dövrünün ilk təbliğat zamanında "Səadət uğrunda", "Seyran", "Qana-qan" kimi dram əsərləri də səhnəyə qoyulur.

Burada Əhməd Rumlunun ruhları oxşayan qəzəllərini də gərək ayrıca qeyd edək. Bizim mətbəədə nəşr olunan "Qəzəllər" kitabında elə könül oxşayan qəzəllər var ki, bir dəfə oxumaqla yaddaşa ömürlük təəssürat yazır:

*Ey könül, aşiq odur cövrü cəfadən qorxmasın,*
*Yarın hicranındakı yüz min bəladan qorxmasın.*

*Zövqi-eşqi olmayan çəksin bu meydandən ayaq,*
*Girsə gər meydanə, dəhşətdən, xətadən qorxmasın.*

*Mən elə rüsvayi-eşqəm yoxdu qorxum kimsədən,*
*Qorxubilməzlər gərək dövrü qəzadən qorxmasın.*

*Şad olur, ey can, qəmi-hicranına düşdükcə can,*
*Bülbüli-şeyda ona derlər, nəvadən qorxmasın.*

*Eşq qəvvası olan kəs düşsə də tufanlara,*
*Nuh tək, Rumlu, gərək seyli bəladən qorxmasın.*

Bu qəzəli oxuyanda istər-istəməz belə bir fikir mənim xəyalımdan keçdi. İndi Azərbaycanda muğam sənəti yeni mərhələyə qədəm qoyur. Çox maraqlı, yaddaqalan muğam müsabiqələri keçirilir. Gənc nəsildən tələb olunur ki, ayrı-ayrı muğamların ifasında təkrar olunan qəzəllərdən imtina etsinlər. Klassik ədəbiyyatımızın digər maraqlı örnəklərinə müraciət etsinlər.




Əhməd Rumlu haqqında yazılan məlumatlardan məlum olur ki, bir vaxt onun ölməz qəzəllərini, könül oxşayan misralarını o taylı xanəndə Mustafa Pəyan şövqlə oxuyarmış. İndi yaddaşımızın ən önəmli səhifələrindən olan Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında da belə misralar dillər əzbəridir: "Bu taydan o taya Mustafa Pəyan, oxuyur Vahidin qəzəllərini". Bəli, bu həmin Mustafa Pəyandır ki, bir vaxtlar o tayda Əhməd Rumlunun qəzəlləri ilə özünün ecazkar səsini zinətləndirir, könülləri oxşayırdı. Məsələn, indi niyə gənc azərbaycanlı xanəndə Əhməd Rumlunun bu qəzəlini oxumasın:

*Ləli-meygunun görən, hərgiz meyi-nab istəməz,*
*Şəhdi-qəndabın əmən, əlbəttə, qəndab istəməz.*

*Şəşəati-arizindən kim ki, kəsbi-nur edər,*
*Mehri-rəxşandan keçər, dünyadə məhtab istəməz.*

*Abi-neysan yağmasa, doğmaz sədəfdən incilər,*
*Bir sədəfdir ləblərin bir qətrə də ab istəməz.*

*Gör nə xoşbəxtəm, oturmuşdur yanımda nazlı yar,*
*Ləblərindən şəhd süzdükcə, gözüm xab istəməz.*

*Bağlıdır könlüm quşu hər ləhzə xəttü xalına,*
*Xatirim ol vəchdir zəncirü qüllab istəməz.*

*Bir sənə aludədir Rumlu, nə haşa özgəyə,*
*Səndən ayrı kimsəyə öz könlünü bab istəməz.*

Bir sözlə, Əhməd Rumlunun şairliyi haqqında ədəbiyyat xiridarları, sözü bütün sehri ilə görən, söz bilən ədəbiyyat adamları danışsa, daha yaxşı olar. Ən azı ona görə ki, ədəbiyyat tariximizdə dəyərli, poetik yaradıcılığı ilə yaşarlıq haqqı almış bu şairi xalqımız daha yaxından tanıyardı. Mənə elə gəlir ki, onun dram əsərlərini də arxivlərdən toplamaq, araya-ərsəyə gətirmək xatirəsinə ehtiram kimi vacib iş olardı.

Əhməd Rumlu haqqında nəşr etdiyimiz kitabda onun barəsində epizodik məlumatlar yer alıb. Hər halda kitabı araya-ərsəyə gətirən Zərifə Ağahüseyn qızı sənətkarın nəvəsidir. Bu səbəbdən də məlumatları mötəbər hesab edə bilərik: "O dövrün adamları onu "Əhməd Rumlu", "Əhməd Ruminski", "Əhməd Əhmədov" kimi tanıyırdılar. Zaman keçdi, dövran dəyişdi, yeni nəsil ərsəyə gəldi. Müasir insanlar onu "Məşədi İbadın hambalı" kimi tanıyır. Gənc yazar Təranə Vahid yazır: "Həyat qəribədir. Bəzən qüdrətli hökmdarların çata bilmədiyi ucalığı sadə bir sənətkar asanlıqla fəth edir. Necə ki, Əhməd Rumlu "O olmasın, bu olsun" filmindəki hambal rolu ilə sənətin sultanı oldu".Zərifə Ağahüseyn qızının diqqətindən keçən bu məlumatın sonuncu cümləsi bizi də təsirləndirdi. Əhməd Rumlu öz istedadı ilə möhtəşəm hambal obrazı yaradıb və həqiqətən, sənətin sultanı olub.

Əhməd Rumlunun həyat yolu o qədər də rəvan olmayıb. O nəyə nail olubsa, öz istedadı sayəsində nail olub, sənətdə əbədiyaşarlıq haqqı alıb. Onu da qeyd etmək yerinə düşər ki, Əhməd Rumlu kinoda sənətkar kimi görkəmli aktyor Əliağa Ağayevin və rejissor Hüseyn Seyidzadənin kəşfi idi. Xüsusilə hambal rolundan sonra əslində qəzəlxan və dramaturq kimi tanınan Əhməd Rumlu müxtəlif filmlərə dəvət olunur.

Bundan sonra 1957-ci ildə "Bir məhəllədən iki nəfər", 1958-ci ildə "Kazbek qutusu", "Kölgələr sürünür", 1960-cı ildə "Səhər", 1961-ci ildə "Bizim küçə" filmlərində çəkilib. Amma o bir şair kimi həmişə öz aləminə qapıldığından bir növ kölgədə qalır, epizodik rollara çəkilirdi. Belə bir istedadlı aktyor daha möhtəşəm rollara çəkilə bilərmiş. Onun görkəmli Azərbaycan ziyalısı kimi obrazına işıq salan nəvəsi Zərifə Ağahüseyn qızının bu qeydləri də oxucular üçün maraqlı ola bilər: "Bir abbası həsrəti çəkən Əhməd Əhmədovun həyatda maddi korluğu olmayıb.

...Filmə baxanda kiçik bir nöqsan belə tapmaq olmur. Bu, bəlkə də Üzeyir Hacıbəyovun dahiliyindən irəli gəlir. Bu, bəlkə də rejissor Həsən Seyidbəylinin, əsas rolların ifaçılarının, hətta kütləvi səhnələrdə oynayan aktyorların peşəkarlığındandır. Filmdə yalnız iki-üç epizodda görünsə də, bir obrazla peşəkarlığı və bənzərsizliyi ilə tamaşaçıların yaddaşına əbədi həkk olnudu. Söhbət "O olmasın, bu olsun" filmindəki hambal obrazından gedir. Aktyor hambal obrazının psixologiyasını, daxili aləmini o qədər gözəl açmışdı ki, izləyicilər onun həqiqətən də, ən yoxsul, kasıb təbəqənin nümayəndəsi olduğunu düşünürdü. Elə indi də çoxları belə fikirləşir. Amma... Amma hamının filmdən bir abbasıya görə Məşədi İbadın ayaqları altına çöməlan hambal kimi tanıdığı insan həyatda elitar ailənin nümayəndəsi olub...". Əhməd Rumlu həyatda qorxmayan, qürurlu şəxsiyyəti ilə fərqlənib. Hətta ev bölgüsündə adı siyahıdan çıxarılanda, 56-cı ildə Mərkəzi Komitəyə satirik şeirlə də ərizə yazıb. Sənətkarın nəvəsinin qeyd etdiyinə görə şeirin məzmunu beləymiş: "Nə sizdən ev ala bildim, nə də Məşədi İbadddan bir abbasımı". Elə təkcə bu yanaşma onun təbiətən necə adam olduğunun göstəricisidir.

Əhməd Rumlunun "Qəzəllər" kitabını sənətkarın nəvəsi Zərifə Ağahüseyn qızı tərtib edib. Çox dəyərli bir "ön söz" də yazıb. Və doğru olaraq qeyd edir ki, "bir əsr bundan əvvəl dünyaya gələn, yazdıqları müasir günümüzlə səsləşən şairin qəzəlləri, inanırıq ki, muğamatımız boy verdikcə yaşayacaq, yeni ifaçıların, Qarabağ bülbüllərinin repertuarının bəzəyi olacaq". Kitabın redaktoru, şair, şərqşünas Hacı Gülbala Fənaidir. Rəssamlar isə görkəmli sənətkarın nəticələri Ədilə Ayaz İbrahimova və Aytən Əhmədovadır. Əlbəttə, kitab "Bakı mətbəəsi" ASC-də nəşr edilib. Kitabın yüksək poliqrafik səviyyədə araya-ərsəyə gəlməsi üçün rəhbərlik etdiyim mətbəə kollektivinin böyük xidməti var. Əlbəttə, kitabın bədii redaktoru Zərifə Ağahüseyn qızının qədir bilənliklə kitabı araya-ərsəyə gətirməsi xüsusi qeyd olunmalıdır. O qədər belə sənətkarlarımız var ki, diqqətdən kənarda qalır, unudulmaq təhlükəsi ilə üzləşirlər.

Kitab iki hissədən ibarətdir. Birinci əsas hissə, əlbəttə, Əhməd Rumlunun qəzəlləridir. Kitabın ikinci hissəsində Əhməd Rumludan bəhs edən mətbuat materialları toplanıb. Bu hissədə maraqlı xatirələr, sənətkarın yaradıcılığı haqqında təəssüratlar da, oxucu marağını təmin edir.

Əhməd Rumlunun qəzəllərində ərəb və fars sözləri çox işlənir. Elə bu səbəbdən kitabda lüğət də verilib. Zərifə Ağahüseyn qızının dediyinə görə lüğət şair-şərqşünas Gülbala Fənainin zəhmətinin bəhrəsidir.

Əhməd Rumlu (Əhməd Məmmədqulu oğlu Əhmədov) Əhməd Ruminski adı ilə də tanınıb. O, 13 noyabr 1982-ci ildə Bakıda vəfat edib. Məzarı Balaxanı qəbiristanlığındadır. Kifayət qədər adına hörmət ifadə edən qəbirüstü abidəsi var.

*17.09.2021*